## Qırğız Respublikası ilə əməkdaşlıq

- AQTA ilə Qırğız Respublikasının müvafiq qurumları arasında qida təhlükəsizliyi və bitki sağlamlığı sahələrində əməkdaşlıq həyata keçirilir.
- 2024-cü il 2-4 iyul tarixlərində Bakı şəhərində "Dabaq Xəstəliyi üzrə Qərbi Avrasiya Yol Xəritəsi üçün Regional Məsləhətləşmə Qrupunun İclası" və Quba rayonunda xarici ölkələrdən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə dabaq xəstəliyi üzrə simulyasiya məşqləri keçirilmişdir. Sözügedən iclasda Qırğız nümayəndə heyəti də iştirak etmişdir.
- 2023-cü il 25-27 aprel tarixlərində Bakı şəhərində keçirilən xırdabuynuzlu heyvanların taunu və dabaq xəstəliklərinə həsr olunmuş beynəlxalq tədbirdə Qırğız Respublikasının nümayəndə heyəti də iştirak etmişdir. Tədbir zamanı Qırğız nümayəndə heyəti AQTİ-nin fəaliyyəti ilə tanış olmuşdur.
- 2023-cü il 1 mart tarixində Qırğız Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baytarlıq Xidmətinin müdir müavini Bakıt Şarapov AQTİ-yə səfər etmişdir. Səfər çərçivəsində B.Şarapova AQTİ-nin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilmişdir. Görüş zamanı qonaq ölkəmizdə qida təhlükəsizliyi sahəsində laboratoriya sisteminin inkişafı, maddi-texniki bazanın modernləşdirilməsi sahəsində həyata keçirilən işlər və nailiyyətlər barədə də məlumatlandırılmışdır.